# Kökünə bağlı, dövlətinə sədaqətli, xalqına Mehriban xanım

Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Birinci vitse-prezidenti Mehriban Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdəndir.

Xeyirxah əməlləri ilə xalqın sevimlisinə çevrilən birinci xanım Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirərək, nəciblik və zəriflik missiyasını şərəflə yerinə yetirir. Bu şərəf Mehriban xanımın Azərbaycan adına bəxş etdiyi sərvətdir, dəyərdir.

Əslində, Azərbaycan qadınının istər birinci xanım olsun, istərsə də adi ev xanımı, fərq etmir, damarları ilə axan qadınlıq qüruru, xanımlıq şərəfi, analıq ləyaqəti onun ən üstün keyfiyyətidir. Allah bu üstünlüyü hər millətə bəxş etmir. Nə xoş ki Tanrı qiyməti, milyonlarla, milyardlarla ölçülməyəcək qədər dəyərli olan həmin sərvəti məhz Azərbaycan qadınlarına bəxş edib. Bu bir həqiqətdir ki, Azərbaycan qadınları tarixboyu müdrik, uzaqgörən, Vətənə, torpağa və ailəsinə sədaqətli olmuş, hər zamanın özünəməxsus sınaqlarından alnıaçıq, başıuca çıxmağı bacarmış, çətin məqamlarda doğru yolu seçmişlər. Bunun bariz nümunəsini e.ə. VI əsrdə yaşayan Əhəməni hökmdarı Kirə qan uddurmuş Tomrisin timsalında, öz ağlı və dərrakəsi ilə İsgəndəri düşünməyə vadar etmiş Bərdə hökmdarı Nüşabənin simasında görürük. Sultan Toğrulun qızı, Atabəylər dövlətinin sonuncu hökmdarı Müzəffərəddin Özbəyin həyat yoldaşı Mehrican xatun şəxsi nüfuzu hesabına Xoy, Səlmas və Urmiyanı öz idarəçiliyində saxlaya bilmişdi. 1225-ci ildə Təbrizli Şəmsəddinlə birlikdə Təbriz, Xoy, Naxçıvan şəhərlərinin işğalçılardan azad olunmasında böyük hünər göstərmişdir.

Adı Azərbaycanın və Şərqin dövlətçilik tarixinə ilk xanım diplomat kimi daxil olan Ağqoyunlu hökmdarı Uzun Həsənin anası Sara Xatun isə ilk birinci xanım statusunda olub. Tarix onu bizə böyük ağıl və mətanət, müdriklik və cəsarət sahibi, istedadlı diplomat kimi tanıdıb. Xarici ölkələrlə aparılan danışıqlarda o zaman bütün Şərqdə yeganə qadın diplomat olan Sara Xatun mühüm rol oynayırdı. Sara Xatun mahir bir diplomat kimi öz ölkəsindən çox-çox uzaqlarda da tanınmışdı. O həm də böyük hərbi sərkərdəlik bacarığına və hərbi intuisiyaya malik qadın idi. Onun uzaqgörən ağlı və çevikliyi dar məqamlarda tez qərar çıxarmaqda əlindən tuturdu. Bir ana olaraq da adı tarix səhifələrinə qızıl hərflərlə yazılıb.

Bugünkü Sara Xatunumuz bizim birinci xanımımız Mehriban xanım Əliyevadır. Tanrı Azərbaycan xalqına 500 il sonra Mehriban xanımın timsalında yeni Sara Xatunu bəxş edib. Hər iki xanım bu millətin baş tacı, şərəf ölçüsüdür. Hər iki qadın bu xalqın bəşəri duyğularla yüklənmiş əsilzadə, kübar, incə ruhlu xanımlarıdır. Hər iki qadın zərafəti, nəcibliyi qan yaddaşında daşıyan ucalıq rəmzidir. Hər iki qadının taleyində Tomris hünəri, Nüşabə uzaqgörənliyi, Mehrican nüfuzu cəmləşib.

Mehriban xanım tariximizdə dövlət və siyasi xadim kimi iz qoyan həmin xanımlarımızın qədim ənənəsini bu gün böyük bacarıq və qabiliyyətlə, həm də yüksək səviyyədə davam etdirən xanım liderdir. Amma onu bu xanımlardan fərqləndirən daha bir üstünlüyü var: Mehriban xanımın fəaliyyəti çoxşaxəlidir. Hər bir işi sevgi ilə görür, hər kəsə qayğı ilə yanaşır və bu sevgini, bu qayğını çox səxavətlə insanlara ötürür.

Məlumdur ki, birinci xanımlar ölkəsinin ictimai-siyasi və sosial həyatında fəal iştirak etməklə yanaşı, dövlətlərarası dostluq, humanitar və mədəni əməkdaşlığı möhkəmləndirən siyasi xadimlərdir. Onlar həm də beynəlxalq sülhü, qadın və uşaq hüquqlarını, ümumbəşəri dəyərlərin qorunmasını müdafiə edən şəxslərdir. Mehriban Əliyeva məhz bu parametrləri şəxsi taleyində və fəaliyyətində daşıyan xanımdır. Onun vətəni, xalqı üçün etdiklərini sadalamağa gərək görmürəm. Bir kitablıq faktı bir yazıya necə sığışdırmaq olar? Zatən son 20 ildə ölkənin birinci xanımı olaraq gördüyü işlər əsas verir ki, hər bir azərbaycanlının yaddaşında, qəlbində bu gözəl xanımın obrazı yaradılsın. Azərbaycan qadınının əsrlərin o tayından boylanan xanım-xatınlığı, Şərq qadınlarına xas əsilzadəliyi, kübarlığı Mehriban xanımın simasından, baxışlarından, xoş təbəssümündən boy göstərir. Azərbaycanın birinci xanımı olaraq onun adı dünyada ən gözəl hesab olunan birinci xanımların siyahısında öncül yerdədir.

Onun özünəməxsus gözəlliyi, zərifliyi, səmimiyyəti var. Ulu Öndərin sağlığında televiziya ekranlarından, fotoobyektivlərdən qaçmağa çalışır, arxa planda görünməyə cəhd edirdi. Bu, onun ədəb-ərkanından, mədəniyyətindən, genetikasından gələn bir əxlaq nümunəsi idi. Amma özünün sirli təbəssümü, utancaq siması, gülər gözləri ilə yaddaşlara hopur, insanların maraq dairəsinə düşürdü. Bu ondan irəli gəlirdi ki, Mehriban xanım tarixi köklər üzərində pərvəriş tapmış bir nəslin, bir gözəl ailənin yetirməsidir. Görkəmli şərqşünas, Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida İmanquliyevadan tərbiyə almış, babaları Mir Cəlal Paşayev və Nəsir İmanquliyevdən insanlığı öyrənmiş, atası akademik Arif Paşayevdən elmin sirlərini əxz etmişdi. O, Ulu Öndərin gəlini idi, gələcəyin böyük sərkərdəsi, "dəmir yumruq"lu Ali Baş Komandanı, Azərbaycana Zəfər sevincini yaşadacaq Prezident İlham Əliyevin əlindən tuturdu. Zəriflik nümunəsi olan, Azərbaycan qadınına xas ideal keyfiyyətləri, ziyalılığı, insanlara sevgisi ilə böyük nüfuz qazanmış akademik Zərifə Əliyevanın ocağından hərarət alaraq ondan da həyat dərsi almışdı. Ötən əsrin 80-ci illərində Ulu Öndərin şəxsi mühafizəsinin rəisi olmuş Aleksandr İvanovun söylədiyi bu fikirlər dediklərimi təsdiq edir: "Çox sonralar mən Zərifə xanımın bir çox məziyyətlərini Mehriban xanımın timsalında gördüm. Düz deyiblər ki, gəlin ocağa çəkər". Deməli, birinci xanım hər iki ocaqda gördüklərini, öyrəndiklərini qəlbinin yaddaşına köçürüb...

"Hər bir uğur qazanmış kişinin arxasında bir qadın dayanır" fikrini dünyanın hər yerində təsdiq edirlər. Lakin bu fikir yarımçıqdır, çünki hər bir uğur qazanmış qadının arxasında da ona hərtərəfli dəstək olan kişi, bütövlükdə ailə, mənəvi dəyərlər, milli varlığa bağlılıq dayanır. Həmin qadınlar özünənamlı, güclü, eyni zamanda öz ocağının qoruyucusu olur, hər zaman ailə dəyərlərinin mizan-tərəzisini diqqətdə saxlayırlar. Və ən maraqlısı odur ki, bunlar onun ictimai xadim olmağına, cəmiyyətdə yüksək mövqe tutmağına mane olmur. Əksinə, hər iki missiya bir-birini tamamlayır - İlham və Mehriban Əliyevlərin ailəsində olduğu kimi. Azərbaycanın birinci xanımı həmin qoruyuculuq missiyasının daşıyıcısı olmaqla yanaşı, həm də Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyəti Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, ICESCO-nun xoşməramlı səfiridir. Mehriban xanım Əliyevanın tarixi abidələrin, müqəddəs dini məkanların bərpası, abadlaşdırılması üzrə həyata keçirdiyi layihələr, başqa-başqa ölkələrdə inşa etdirdiyi məktəblər, ehtiyacı olan icmalara uzatdığı kömək əli, ICESCO-nun sülhməramlı səfiri qismində yerinə yetirdiyi missiya xarici ölkələrdə yaşayan insanlarda Azərbaycan qadınının şəxsiyyətinə böyük rəğbət yaradır.

Onun cəmiyyətdə tutduğu mövqe, ictimai-siyasi hadisələrə münasibəti, aldığı qərarlar, verdiyi tövsiyə və məsləhətlər İlham Əliyevin fəaliyyəti ilə həmahəngdir. Dünyada yayılmış bir aforizmi Prezidentin ən sadiq məsləkdaşı olan Mehriban Əliyevanın ünvanına çəkinmədən söyləmək olar: birinci xanım prezident üçün ən yaxşı partiyadır. Məhz buna görə də Prezident Birinci vitse-prezidentlik kürsüsünə öz məsləkdaşını layiq gördü. 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın Zəfər müjdəsini ilk olaraq sosial şəbəkə hesablarında paylaşması, Prezidentlə birlikdə hospitallarda müalicə olunan hərbçiləri ziyarət etməsi, şəhid analarının yanında olarkən göz yaşlarını gizlətməyə çalışması, qələbədən sonra dəfələrlə işğaldan azad olunmuş rayonlara səfəri xanım Əliyevanın həm vətənpərvər, cəsarətli, güclü, eyni zamanda mərhəmətli və şəfqətli olmasını göstərir, həm də bu təyinatın çox doğru olduğunu sübut edir. Bir dəfə İlham Əliyev birinci xanımın Birinci vitse-prezident kimi fəaliyyəti haqqında xarici jurnalistin verdiyi sualı belə cavablandırdı: "Onun azərbaycanlılar arasında güclü dəstəyi var. Siz küçədə istənilən şəxsdən soruşa, vətəndaşların onu necə sevdiyini və dəstəklədiyini görə bilərsiniz. O, tamamilə sosial və humanitar məsələlərlə məşğuldur və on minlərlə insana yardım edir. Lakin o, bunu hər hansı bir piarsız, reklamsız və elansız edir. Beləliklə, o, xalqımızın qürur duyduğu bir şəxsdir".

Bu bir tarixi həqiqətdir ki, vətəni, xalqı üçün çalışan, təmənnasız xeyirxahlığı və humanistliyi həyat amalına çevirən şəxslərin ideyaları, xoş əməlləri gələcək nəsillər üçün nümunəyə çevrilir. Özlərindən sonra qoyub getdikləri iz nəsillər dəyişdikcə hər dəfə yenilənir. Çünki həmin iz böyükdür, genişdir, silinməzdir. Xanım Mehriban Əliyeva - bizim zamanın Sara Xatunu da məhz belə iz sahibidir.

*Züleyxa ƏLİYEVA.*
*"Azərbaycan"*